UOT 780.6

**Emilya Emil qızı Yanakiyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**dissertant**
**e-mail: emili_2010@mail.ru**

# ŞƏRQ SİMLİ ALƏTLƏRİNİN BƏDİİ TƏRTİBAT XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə Şərq çalğı alətləri sırasında simli alətlərin bədii tərtibat xüsusiyyətləri haqqında konkret olaraq qısa məlumat verilmiş, onların quruluşu və naxışlanma xüsusiyyətləri haqqında lakonik informasiya yer almışdır. Tar, qanun, ud, dambur, kamança, saz kimi musiqi alətlərindən bir çoxunun bədii quruluşu açıqlanmış, nümunələr üzərində mövzunun açıqlanması üçün qısa təhlillər aparılmışdır. Əsas olaraq tar, qanun, ud və kaman haqqında verilmiş məlumatlar məqalənin maraq dairəsini artırmışdır.

**Açar sözlər:** musiqi, çalğı alətləri, bədii tərtibat, simli alətlər

Xalq mədəniyyətinin mühüm göstəricilərindən biri olan musiqi və həmin musiqiləri səsləndirən çalğı alətlərinin bədii tərtibat xüsusiyyətləri haqqında araşdırma onların sadəcə funksionallığını deyil, eyni zamanda estetik cəhətlərinin formalaşmış və istifadəyə uyğun bədii tərtibat xüsusiyyətlərini də müəyyənləşdirməyə imkan verir.

İnsanın mənəvi aləminin formalaşmasında, ruhunun qidasına çevrilən musiqi demək olar ki, bəşər tarixində əsaslı yerə sahibdir. Bu mənada əsrlər boyu yeni melodiyalar, musiqi janrları yaradılır və nəticə olaraq ibtidai musiqi alətləri öz formasını dəyişir, tərəqqi edir, ilkin variantdan daha müasir formaya keçir və beləcə, öz inkişaf xəttini təyin edir. Mövzu ilə bağlı araşdırmanın nəticəsi göstərir ki, tarix dəyişdikcə, bir-biri ilə mədəni və maddi əlaqədə olan xalqların musiqi alətlərinin müqayisəli şəkildə öyrənilməsinin böyük əhəmiyyəti vardır. Əlbəttə ki, qeyd edilən xətt üzrə tarixi, ədəbi, etnoqrafik, arxeoloji və linqvistik qaynaqlardan istifadə mühüm rol oynayır. Bu mənada musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərinin öyrənilməsində hərtərəfli yanaşma problemin həllində məsələni daha geniş araşdırmağa şərait yaradır.

Simli alətlərdən öz bədii forması ilə maraq doğuran alətlər sırasında udun adını xüsusi qeyd etmək olar. Yaranma tarixinin VII-VIII əsrlərə aid olduğunu iddia edən mənbələrdən məlum olur ki, Şərq xalqları arasında bu çalğı aləti xüsusi əhəmiyyət daşıyırdı. XII əsrə aid miniatür təsvirlərdə hətta uda oxşar alətin tərənnüm edildiyi əsərlərə də rast gəlinir. Həmin əsərlərdəki musiqi axşamlarında ifa edilən nümunələrdəki alət müasir udun bir qədər fərqli forması ilə diqqəti

çəkir. Məsələn, udun müasir variantında əsas hissənin daha iri və qabarıq armudabənzər olduğunu bilirik. Qısa qol və geriyə əyilmiş aşıxlı kəllə onun əsas tərtibat xüsusiyyətlərini bəlli edir. Ud tar ilə nisbətdə daha iriölçülü olaraq gövdəsi 45-500 mm., qolun uzunluğu isə 195-200 mm. arasında dəyişir. Eni isə 35-355 mm təşkil edir [1; s. 34]. Orta əsrlərə aid təsvirlərdə verilmiş ud isə bir qədər kiçik formada olaraq armudvari gövdənin yarımşəkli formasında tərənnüm edilmişdir.

Taxta materialdan hazırlanan udun tar ilə müqayisədə fərqli cəhətlərindən biri də onun adət üzrə hər hansı qiymətli daş-qaşlarla bəzədilməməsi kimi xüsusiyyətidir ki, buradan da belə nəticə çıxarmaq olar ki, ud özünün orijinal forması ilə musiqinin lirizmini özündə cəmləşdirir.

Azərbaycan simli musiqi alətlərinin bədii quruluşu birbaşa onların inkişaf tarixi ilə dəyişən xətt üzrə inkişafda olduğunu göstərir. Məsələn, xalqımız üçün olduqca məşhur olan tarın müasir variantını nəzərdən keçirək. Görkəmli musiqişünas Firudin Şuşinski tarın yaranma tarixi haqqında qeyd edərək, onun X əsr Türküstan türklərindən olan Tərxan oğlu Məhəmməd Cərco tərəfindən Fərab adlı bir kənddə yaradıldığını yazmışdır. Şərq dünyasının, əsasən də Azərbaycan xalq çağlı alətlərinin əsasında dayanan tarın forması, quruluşu onun dəyişən zaman çərçivəsində, sadəcə, simlərinin sayca dəyişməsini deməyə əsas verir. Farsca “sim”, “tel”, “mizrabla çalınan” mənasını verən bu alətin Azərbaycana aid növü məhz Sadıqcanın formalaşdırdığı, təkmilləşdirdiyi tar kimi qarşımıza çıxmaqdadır.

Müasir tarın növünə aid solo ifalar üçün nəzərdə tutulmuş alət 865 mm-lə 890 mm. ölçü arasında dəyişir. Digər növə aid tarın ölçüsü isə bir qədər kiçik olaraq 830-855 mm. arasında olaraq əsasən orkestr üçün nəzərdə tutulmuşdur. Bunlardan əlavə tarın daha azyaşlı ifaçılar üçün nəzərdə tutulan kiçik ölçülü nümunələri də vardır. Bütün növlər arasındakı fərqi, sadəcə olaraq, onların ölçüləri ilə izah etmək olar.

Tar ağac materialdan olaraq bir-birinə bərkidilmiş tərəflərlə icra edilir. Bir çox hallarda bütöv ağacdan tək parça olaraq hazırlanan tar nümunələrinə də rast gəlmək mümkündür. Bu, əsasən, daha kiçik ölçülü tarlara aiddir. Tar gövdəsindən başlayaraq daxili hissəsinə yerləşdirilmiş qol, küp və əsas hissə hesab edilən kəllədən ibarətdir.

Tarın bədii tərtibatına hər zaman xüsusi fikir verilərək onun dekorativ xüsusiyyətlərinin meydana gəlməsində ümumi və fərdi xüsusiyyətləri ilə meydana çıxmışdır. Əvvəllər qızıl və ya gümüşdən bəzədilən tarlar sonralar sədəf və digər daşlarla da dekorlanmağa başlamışdır. Hətta qeyd edilən musiqi alətinin “sədəfli tar” adı ilə məşhur olan növü də mövcuddur. Milli xalq çalğı alətinin bəzək elementləri də demək olar ki, milli ornamental xüsusiyyətlərə malik olaraq ümumi xarakterik xüsusiyyətləri meydana çıxarır.

Alətin tamaşaçıya tərəf olan yan hissəsində, adətən, aid olduğu insanın adı və hazırlanma tarixi qeyd olunur. Bəzən onu hazırlayan ustanın adı da tarın üzərinə sədəflə həkk edilir. Naxışlar xüsusi olaraq nəbati elementlərlə həyata keçirilir. Bunu bir çox nümunənin üzərində görmək olar. Misal üçün, müasir Azərbaycan tarına nümunə olaraq birinin kəllə hissəsində gül-çiçək naxışlarından əmələ gəlmiş bəzək elementinin böyük zövqlə həyata keçirildiyini görə bilərik. Sağ hissədən bir budağın üzərindən şaxələnən yarpaq və xırda çiçəklər hər iki tərəfə eyni formada yayılaraq tarın kəllə tərəfində yan hissələrin gözəl görünməsini təmin etmişdir. Bir qədər kiçik çanaq hissədə isə xonça tipli element yuvarlaq halda kənarları nöqtəli sadə haşiyə ilə əhatələnərək digər tərəfdəki naxışdan kəskin şəkildə fərqlənir. Kəllə hissənin kənar tərəfi sədəfin parlaqlığında sadə elementlərlə bütün əhatə boyu haşiyələnərək bəzəklərin dağınıq görünməsinə imkan vermir. Kəllə hissədən ayrılmış iki istiqamətə doğru simmetrik davam edən yarpaqdan əmələ gəlmiş naxışlar arxadan qolun başlanğıcına qədər davam etdirilir.

Tarın bədii tərtibat xüsusiyyətlərində onun qolunun səthinin həlli də maraq doğurur. Həndəsi və nəbati elementlərin stilizə edilməsi ilə yaradılmış bəzəklər, sadəcə, estetiklik üçün nəzərdə tutulmamış, eyni zamanda, qolda pərdələrin yerləşmə nişanı kimi funksional mahiyyət də daşıyır.

Simli alətlər arasında həm xalq çalğı ansamblında, həm də solo ifaçılığında geniş yayılmış qanun (kanon) öz quruluşu etibarı ilə bir qədər orqanla eyniləşdirilir. Təbii ki, bu müasir yanaşma olub, səhv fikirlərə əsaslanır. Çünki orqan sıxılmış hava ilə işlədiyi halda, qanun sırf simli alətlər sırasına daxildir. Yaxın və Orta Şərqdə, eləcə də, Azərbaycanda geniş yayılmış qanun öz forması etibarı ilə yataq olaraq gövdəsindən aşağı hissələrə doğru enliləşməyə başlayır. Hazırlanmasında əsas material olaraq çinar, tozağacı, ağcaqayından istifadə edilir. Çalğı aləti 800-900 mm uzunluğunda, 370-400 mm enindədir. Daha dərin səsləndirilməsi məqsədilə alətin üzərinə dəliklər də açılır. Hələ XII əsr mənbələrindən məlum olan qanun Şərq musqisinin əsas çalğı alətlərindən olmuşdur.

Fransada sərgilənmiş Azərbaycan orqan nümunəsinin bədii tərtibat xüsusiyyətləri özünün estetikliyi ilə diqqət çəkir. Onun üzərindəki üç hissədə verilmiş bəzək elementləri stilizə edilmiş buta naxışları ilə tərtib edilmişdir. Orqanın düz olan üz hissəsində bütün əhatə boyu oyulmuş sadə naxışlar haşiyə rolunu icra edir [2; s. 34]. Haşiyə əyri dalğavari xətti elementin sistemli düzülüşü ilə həll edilmişdir. Alətin daha üçkünc olan yuxarı səthində üzü sağa baxan tərəfi butaya bənzər elementin daxilində nöqtələrlə bəzədilmişdir. Onun eynisini təkrarlama da, oxşar formaya məxsus iki naxış elementi də orqanın aşağı sağ və

sol hissələrində verilmişdir. Mərkəzdə kəpənəyəoxşar həkk edilmiş naxış orqanın zövqlü bədii ifadəsini təqdim edir.

Azərbaycanın ən qədim simli musiqi aləti olan kamança özünün ifa tərzi, bədii forması ilə olduqca məşhurdur. Şərq ölkələrində "kamanqa", "qişek", "ikiliq" kimi fərqli adlarla tanınan kamança əcdadı qopuza çox bənzədilir. Türklərin ən qədim çalğı alətinin qopuzdan formalaşdığı haqda müxtəlif fikirlərlə rastlaşmaq mümkündür. Bədii tərtibat xüsusiyyətləri zamanı onun, əsasən, qozağacından hazırlanması və fil sümüyü ilə bəzədilməsi maraq doğurur. Xüsusi olaraq kamança bəzəyən rəssamlar da fəaliyyət göstərmişlər ki, bunların sırasında Kamil Əhmədovun naxışla bəzədilmiş nümunəsinin olduqca zövqlə həyata keçirildiyini qeyd etmək olar. Rəssam əsas olaraq milli ornamentlərdən istifadə etmişdir. Kamançanın çanaq hissəsinin yan tərəfində verilmiş bəzək elementləri arasında səkkizguşəli ulduz elementinin qədim forması diqqət çəkir. Belə ki, naxış məqsədli elementin mərkəzində dairəvi kiçik forma verilmiş və ulduzların tərəfləri ondan ayrılaraq üz-üzə olan eyni uzunluqda haşiyəyə doğru gedir. Haşiyə də kiçik lentvari formalarla verilərək sadə və bəsitliyi ilə deyil, incə təqdimatı ilə zövq oxşayır.

Saz nümunəsinin üzərindəki naxış isə dairəvi halqanın daxili və xarici kənarları boyu assimetrik düzülmüş buta və yarpaq elementlərinin incə düzülüşü ilə həll edilmişdir [3; s. 20]. Halqanın orta hissəsində iki tərəfdən verilmiş yarpaqlar sanki qığılcım kimi işıq saçaraq kamançanın bədii tərtibat xüsusiyyətlərinə mükəmməllik bəxş etmişdir.

Ümumiyyətlə, Şərq xalqlarına məxsus simli alətləri səciyyələndirən xüsusiyyətlər araşdırılarkən, onların qədim nümunələr əsasında öz formalarını dəyişsələr də, orijinallıqlarına sadiq əsaslarla meydana çıxdıqlarını görürük.

**Ədəbiyyat siyahısı**:


1. Беляев, В. Руководство для обмера народных музыкальных инструментов. – Москва: Музгиз, -1931.
2. Римский-Корсаков, А. В., Дьяконов, Н. А. Музыкальные инструменты (методы исследования и расчеты). – Москва: Росгозместпром, - 1952.
3. Керимов, А. К. (Азад Озан Керимли). Таузская школа ашыгов Азербайджана: Автореф. дис. … канд. искусств. – Баку: -1995

**Эмиля Эмиль кызы Янакиева**

**ОСОБЕННОСТИ ХУДОЖЕСТВЕННОГО ОФОРМЛЕНИЯ ВОСТОЧНЫХ СТРУННЫХ ИНСТРУМЕНТОВ**

**Резюме:** В статье дается краткий обзор особенностей художественного оформления восточных струнных музыкальных инструментов, краткие сведения об их строении и особенностях орнаментов и узоров. Автор анализирует художественную структуру многих музыкальных инструментов, таких как тар, канон, уд, дамбур, кяманча, саз, и проводит краткий обзор для объяснения темы. В частности, интерес к статье повышают сведения о таре, каноне, уде и кямане.

**Ключевые слова**: музыка, музыкальные инструменты, художественное оформление, струнные инструменты.

**Emilya Emil qizi Yanakiyeva** **ARTISTIC DESIGN FEATURES OF ORIENTAL STRING INSTRUMENTS**

**Summary:** In the article the laconic information about the artistic design features of stringed instruments among Oriental musical instruments is given, it is also said about their structure and patterning features. The artistic structure of many musical instruments such as “tar”, “ganun”, “ud”, “dambur”, “kamancha”, “saz” was explained and the brief analyzes are carried out on the samples to explain the theme. The information about the musical instruments such as “tar”, “ganun”, “ud” and “kaman” increased mainly the interest to the article.

**Key words:** music, musical instruments, art design, string instruments

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14.03.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**